# AZƏRBAYCAN MİLLİ MÜQAVİMƏT HƏRƏKATI

**Mətbuatla İş üzrə Təlimat**

## I. TƏLİMATIN MƏQSƏDİ

Bu təlimat Azərbaycan Milli Müqavimət Hərəkatının (AMMH) mətbuatla və informasiya vasitələri ilə əlaqələrinin sistemli və səmərəli şəkildə təşkili məqsədi daşıyır.

## II. ƏSAS PRİNSİPLƏR

1. Operativlik və şəffaflıq – Məlumatların vaxtında və dəqiq təqdim olunması.

2. Etibarlılıq və məsuliyyət – Verilən məlumatların düzgünlüyünə və rəsmi mövqeyə əsaslanması.

3. Plüralizm və azad sözə hörmət – Müxtəlif media qurumları ilə balanslı əməkdaşlıq.

## III. ƏSAS VƏZİFƏLƏR

- Mətbuat vasitələri ilə əlaqələrin qurulması və saxlanması.

- AMMH-nin rəsmi mövqeyinin mətbuatda dəqiq və dolğun əks etdirilməsi.

- Mətbuat konfransları, brifinqlər və müsahibələrin təşkili.

- Dezinformasiyanın qarşısının alınması və zəruri hallarda təkziblərin yayılması.

## IV. MƏTBUATLA ƏMƏKDAŞLIĞIN FORMALARI

1. Rəsmi açıqlamalar və press-relizlər.

2. Müsahibələr və ekspert çıxışları.

3. Mətbuat konfransları və media tədbirləri.

4. Onlayn media və sosial platformalar üzərindən yayım.

## V. MƏTBUAT XİDMƏTİNİN STRUKTURU VƏ FƏALİYYƏTİ

- Mətbuat xidməti rəhbəri və sözçü AMMH adından açıqlamalar verir.

- Mətbuatla iş üzrə qrup gündəlik monitorinq aparır və təhlillər hazırlayır.

- Media ilə əməkdaşlıqla bağlı təkliflər rəhbərliyə təqdim olunur.

## VI. İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ

- Qapalı və strateji məlumatların yayılmaması təmin olunmalıdır.

- Mətbuatla paylaşılacaq materiallar əvvəlcədən rəhbərliklə razılaşdırılmalıdır.

## VII. HESABAT VƏ NƏZARƏT

- Hər ay görülən işlər barədə hesabat hazırlanmalı və rəhbərliyə təqdim olunmalıdır.

- Mətbuatla əlaqələrdə istifadə olunan resursların səmərəliliyi qiymətləndirilməlidir.

- Təlimata əməl olunması AMMH-nın Yönətim Kurulu tərəfindən nəzarətdə saxlanılır.

## VIII. YEKUN MÜDDƏALAR

- Təlimat AMMH mətbuat xidməti və əlaqədar şəxslər üçün məcburidir.

- Zərurət olduqda təlimata əlavələr və dəyişikliklər edilə bilər.

- Təlimatla tanışlıq və icrası hər bir məsul şəxs tərəfindən imzalanmaqla təsdiqlənir.